# Sönməyən ocağın istisi və ya Azərbaycan ədəbi-bədii mühitində Əli Rza Xələfli fenomeni



**MƏSUD MAHMUDOV**
**Filologiya elmləri doktoru, professor**

Əli Rza Xələfli şəxsiyyətini, onun çoxşaxəli, çoxqütblü yaradıcı fəaliyyətini bir neçə sözlə ifadə etmək çox çətindir. Əli Rza Xələfli, sözün əsl mənasında, mübaliğəsiz Azərbaycan ədəbi-bədii mühitinin fenomenidir, Azərbaycan adlanan, qədim tarixi ənənələri, mədəniyyəti, ədəbiyyatı, incəsənəti, söz adamları, parlaq gələcəyi olan bir məmləkətdə hadisədir.

Biz bəzən həməsrlərimizi, müasirlərimizi qiymətləndirməkdə, dəyərləndirməkdə çətinlik çəkir, hər şeyi bizdən sonrakıların öhdəsinə buraxırıq. Amma bizimlə eyni dövrdə yaşayan, bizimlə birgə eyni havanı udan, eyni bulağın suyunu içən, bizimlə birgə gələcəyə addımlayan müasirimizin elə yüksək insani xüsusiyyətləri ola bilər ki, onu ancaq həmkarları, yaxın dostları, işlədiyi, hər gün təmasda olduğu insanlar duya, hiss edə bilərlər.

Əli Rza Xələfli istedadlı şair, ədəbiyyatşünas-tənqidçi, peşəkar jurnalist, gözəl təşkilatçı, həssas, qayğıkeş, alicənab insan, sözün əsl mənasında ziyalıdır. Əli Rza Xələfli daxili mədəniyyəti olan bir şəxsiyyətdir. Yəni, o mədəni görünmək xatirinə rola girib özünü mədəni olaraq təqdim etmir, onun mədəniyyəti daxildən, içindən, iç dünyasından gəlir. Bunu uzun illər ərzində onunla ünsiyyətdə olan, onu yaxından tanıyan insanlar duyub dəyərləndirə bilərlər.

Əli Rza Xələflinin həssaslığı da fenomenaldır. İnsanın özünün hiss etmədiyi, duymadığı keyfiyyətləri onda tapır, insanı öz meyarları ilə, insanlıq və keyfiyyət göstəriciləri süzgəcindən keçirir, onu yenidən "kəşf" edir, heç kəsin




görmədiyi, görə bilmədiyi xüsusiyyətlərini qabardır, şəxsi bir fərd olaraq yenidən müasirlərinə, dostlarına, həmkarlarına yeni imicdə, yeni qiyafədə və ampluada təqdim edir. Məəttəl qalırsan, uzun illər ünsiyyətdə olduğum, çörək kəsdiyim, həmkar olduğum bu insanı niyə mən indiyə qədər tanıya bilməmiş, lazımi səviyyədə dəyərləndirməyi bacarmamışam?

Məəttəl qalırsan, təəccüblənirsən və həm də Əli Rza müəllimin həssaslığı, insanı tanımaq, başa düşmək, qiymətləndirmək, dəyərləndirmək qabiliyyətinə, istedadına heyrətlənirsən. Etiraf edək ki, örnəkolası keyfiyyətdir!

Şairlik oxumaqla, yüksək təhsillə, bir neçə ali məktəb diplomu almaq ilə bağlı olan məsələ deyil. Şairlik Allah vergisidir, ilahidən gələn bir sevgi hissinin sözlə ifadəsidir. Burada sevgi sözün geniş mənasında sevgidir - Vətənə, doğulub- boya- başa çatdığın torpağa, səni böyüdüb tərbiyə, təhsil vermiş valideynlərə - ata-anaya, qardaş- bacıya, sevdiyin insanlara və əlbəttə, ilk gəncliyindən qəlbinin ən uca, eyni zamanda ən gizli guşəsində (icazəli və ya səndən icazəsiz) yuva qurmuş, sənə zərif duyğular bəxş edən, sənin şair kimi "yetişməyində" böyük (danılmaz) xidmətləri olan qadına sevgi.

Əli Rza Xələfli poeziyasında bu sevgi çələngi bütün gözəlliyi, cazibəsi ilə insanı qəribə, sehrli, nağıl dünyasına bənzəyən, lakin nağıl olmayan, bugünkü reallıqları tam əks etdirən bir aləmə aparır. Və Əli Rza Xələfli deyir ki, insanları sevin, bütün insanlarda sevilə biləsi cəhətlər var. Siz onları görə bilsəniz, duya bilsəniz, sevə bilərsiniz onu və Sizin onu sevdiyinizi hiss edən insan daha da saflaşacaq, kamilləşəcək, hamının sevgisini qazanacaq (və ya qazanmaq istəyən) bir insana çevriləcək. İnsanları sevin, onları sevdirə biləcək cəhətləri tapın və qabardın. Şair buna cəhd etməli, onun şeiri, poeziyası insanları buna səsləməlidir.

Əsl şairin , əsl poeziyanın məramı oxucuları Vətəni, doğma torpağı, onu bəzəyən təbiəti və onun bir parçası olan insanları sevməyə çağırış etməkdir.

Nifrət, kin, qarğış püskürən şairlər də var. İnsanlara nifrət hissi aşılamaq üçün böyük istedad lazım gəlmir və irəlicədən deyim ki, ola bilsin, o da şairdir, onu da oxuyanlar, alqışlayanlar var, amma mənim şairim deyil. Onun oxucuları arasında, onun auditoriyasında mənim yerim yoxdur.

Əli Rza Xələfli qeyri-adi təşkilatçılıq qabiliyyəti ilə seçilən peşəkar jurnalistdir. Onun yaratdığı, inkişaf etdirdiyi, bugünkü səviyyəyə çatdırdığı "Kredo" qəzetini Azərbaycan elm xadimlərinə, ədəbi ictimaiyyətə, bütövlükdə Azərbaycan xalqına təqdim etməyə ehtiyac yoxdur.

"Kredo" bir məktəb, elm məbədi, müqəddəs bir ocaqdır. O ocağın sahibi, himayəçisi, qoruyucusu Əli Rza Xələflidir. O ocaq minlərlə insana xeyir-dua verib, yol göstərib, gənc istedadların ürəyinə öz ürəyinin odunu, nurunu, işığını, istisini, hərarətini qoyub!

Azərbaycan elm adamlarının, şair və yazıçıların, ədəbiyyatşünas və tənqidçilərin ən çox sevdiyi və vaxtaşırı bir-birindən gözəl ədəbi nümunələrlə, elmi, tənqidi, biblioqrafik məqalələrlə çıxış etdikləri ən çox sevilən, oxunan bir qəzet kimi "Kredo"nun Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, dilçiliyinin, bütövlükdə Azərbaycan elminin inkişafında və təbliğində xidmətləri danılmazdır. "Kredo" qəzetinin redaksiyası görkəmli elm xadimlərinin, şair və yazıçıların vaxtaşırı toplaşdıqları, müzakirələrin keçirildiyi mərkəz kimi də fəaliyyətini davam etdirir. "Kredo" qəzeti Azərbaycan ziyalılarının, alim, müəllim, şair və yazıçıların, jurnalistlərin, digər əhali təbəqəsinin ata evinə, elm və mədəniyyətlə bağlı bir çox vacib məsələlərin müzakirə və təhlil olunduğu müqəddəs ocağa çevrilmişdir. Bütün bu uğurların qazanılması Əli Rza Xələflinin yorulmaz fəaliyyəti, şəxsi erudisiyası, təşkilatçılığı nəticəsində mümkün olmuşdur. Mübaliğəsiz demək olar ki, "Kredo" qəzeti böyük bir yaradıcı kollektivin, şöbə və laboratoriyanın icra etməli olduğu işi təkbaşına yerinə yetirmək iqtidarında olan bir orqandır.

Əli Rza Xələfli sönməyən bir ocağın tükənməyən enerjisi, odu, istisi, nurudur. Bu odun istisi, bu ocağın nuru minlərlə insana sevinc, həyat eşqi gətirir, qəlbləri isidir, dərdliləri dərdsiz edir, kimsəsizləri ovundurur, xoş bir ovqat yaradır.

Əli Rza Xələflinin ürəklərdə yandırdığı o tonqalın alovu, istisi, Əli Rza Xələfli Ocağının hərarəti, nuru heç vaxt əskilməyəcək, heç vaxt azalmayacaq, heç vaxt sönməyəcək. Çünki, Əli Rza Xələfli Ocağının kökləri xalqa bağlıdır, Vətənə bağlıdır və bu köklər öz şirəsini, gücünü, enerjisini torpaqdan alır. Bu torpağın, bu yurdun adı Odlar Yurdudur.

Odlar Yurdunun odu isə tükənən deyil - onun odundan, alovundan var olmuş, xəmiri xeyirxahlıq, düzlük, təmizlik, insanlıq, istedad və zəhmətdən yoğrulmuş Əli Rza Xələflinin ürəyinin istisi, odu, alovu kimi!

Sevinirəm ki, yaxından tanıdığım, insanlığına, intellektinə yaxından bələd olduğum monoqrafiya və elmi məqalələrini maraqla oxuduğum, elmi-pedaqoji uğurları ilə fəxr etdiyim alim dostum Yədulla Ağazadə Xələfli sözünün aşiqləri, ardıcıl tədqiqatçıları sırasındadır. Odur ki, bu odu, bu alovu ədəbiyyatşünas alim, professor, dəyərli dostum Yədulla Ağazadənin Əli Rza Xələflinin "Dağlarda duman qaldı" poemalar kitabı haqqında yazdığı "Pirlər bulağından novatorluğa" monoqrafiyasında da bütün aydınlığı ilə hiss etmək mümkündür.

**17.11.2023**